

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 2 mart 2022-ci il №17 (2628) https://mod.gov.az Qiyməti 30 qəpik


# Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar Bakıda ümumxalq yürüşü keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yürüşdə iştirak ediblər




*XX əsrdə bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciənin 30-cu ildönümü ilə əlaqədar Bakıda ümumxalq yürüşü keçirilib.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yürüşdə iştirak ediblər.

Yürüş iştirakçıları Xətai rayonunda ucaldılan Xocalı abidəsinin yerləşdiyi əraziyə gəldilər.

Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsini ehtiramla yad etdi.

Birinci xanım Mehriban Əliyeva, Baş nazir Əli Əsədov, Milli Məclisin sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev abidənin önünə gül dəstələri qoydular.

Yürüşdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə, agentlik və şirkət rəhbərləri, dini konfessiyaların başçıları iştirak ediblər.

Ümumxalq yürüşünün iştirakçıları abidənin önünə tər güllər düzdülər.

* * *

Xalqımız hər il olduğu kimi bu il də Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad edir. Qeyd edək ki, Xocalı soyqırımının anım günü Azərbaycan xalqının birliyinin, milli təəssübkeşliyinin simvoluna çevrilib.

Artıq ikinci ildir ki, xalqımız Bakıdakı Xocalı soyqırımı abidəsini alnıaçıq, başıuca ziyarət edir, çünki düşməndən bütün şəhidlərimiz kimi, Xocalı soyqırımı qurbanlarının da qisası alınıb. Prezident İlham Əliyevin dediyi kimi: "Biz onların cavabını döyüş meydanında verdik, bütün şəhidlərimizin qisasını aldıq, onların qanları yerdə qalmadı".

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsindəki parlaq Qələbəsi 2020-ci ili Azərbaycan tarixinə Zəfər ili kimi yazdı. Güclü siyasi iradə, möhkəm iqtisadi potensial, qüdrətli ordu, xalq-lider vəhdəti, cəmiyyətdəki böyük ruh yüksəkliyi, vətənpərvərlik, əzmkarlıq tarixi Qələbəni təmin etdi. Otuz illik həsrət bitdi, torpaqlarımız mənfur düşmənin işğalından azad edildi, ərazi bütövlüyümüz təmin olundu. Hazırda Azərbaycanın üçrəngli Dövlət Bayrağı işğaldan azad edilən torpaqlarımızda - Füzulidə, Cəbrayılda, Qubadlıda, Zəngilanda, Ağdamda, Laçında, Kəlbəcərdə, Şuşada dalğalanır.

Azərbaycan xalqı Xocalı soyqırımını heç vaxt unutmur və unutmayacaq. Bir daha 30 il əvvələ qayıdır, o amansız soyqırımını, onun günahsız qurbanlarının xatirəsini yenidən yad edirik. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının iştirakı ilə Xocalıda dəhşətli soyqırımı törətdi.

Ümumiyyətlə, son iki əsrdə erməni millətçiləri tarixi Azərbaycan torpaqları hesabına mifik "böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə ardıcıl şəkildə xalqımıza qarşı terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə siyasəti apardılar. Xocalı soyqırımı erməni millətçiləri və onların havadarlarının Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımı siyasətinin ən qanlı səhifəsidir. Dünyanın gözü qarşısında baş vermiş, qəddarlığı və amansızlığı ilə fərqlənən bu ağır cinayətə görə siyasi-hüquqi məsuliyyət birbaşa Ermənistanın ozamankı rəhbərliyinin üzərinə düşür.

Xocalı erməni silahlı birləşmələrinin ölkəmizə təcavüzünün kulminasiya nöqtəsi idi. Erməni faşistlər aylarla mühasirədə saxladıqları bu dinc şəhəri öz havadarları ilə birgə bir gecənin içində yerlə-yeksan etdilər. Dinc əhaliyə amansızlıqla divan tutuldu, 613 nəfər qətlə yetirildi, 1275 nəfər girov götürüldü, 150 nəfərin taleyi hələ də məlum deyil. Qətlə yetirilənlərin 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri ahıl insandır. Hərbi təcavüz nəticəsində 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 132 uşaq isə valideynlərindən birini itirib. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, insanlar diri-diri yandırılıb, onlara ağlasığmaz işgəncələr verilib.

Xocalı soyqırımına qədər də ermənilər Qarabağda azərbaycanlılara qarşı kütləvi qırğınlar törətmişdilər. 1992-ci il fevralın 12-də Şuşanın Malıbəyli və Quşçular kəndlərində törədilmiş qarət və qırğınlar nəticəsində təkcə Malıbəyli kəndində 50 nəfər öldürülmüş, onlarla insan yaralanmış və əsir götürülmüşdü.

1992-ci il fevralın 17-də Ermənistan silahlı qüvvələrinin və Xankəndidəki 366-cı motoatıcı alayın Xocavənd rayonunun Qaradağlı kəndində törətdiyi qırğın nəticəsində kəndin hər 10 sakinindən biri şəhid olub, 104 nəfər və müdafiə dəstəsinin 15 üzvü əsir götürülüb, onlardan 80 nəfəri qətlə yetirilib. Öldürülənlərdən 10-u qadın, 8-i uşaqdır. Ümumilikdə Qaradağlı 1988-1992-ci illərdə 305 dəfə düşmən hücumuna məruz qalmışdı. Bu, Xocalıya aparan yolun başlanğıcı idi. Qaradağlı faciəsinə amansızlığın miqyasına görə ikinci Xocalı da deyirlər.

Əhalisi 7 min nəfər olan Xocalı isə Qarabağda ən böyük yaşayış məntəqələrindən biri idi. Xankəndidən 10 kilometr Cənub-Şərqdə, Qarabağ dağ silsiləsində və Ağdam-Şuşa, Əsgəran-Xankəndi yollarının üstündə yerləşən Xocalıya 1990-cı ildə şəhər statusu verilmişdi.

**(Ardı 2-ci səhifədə)**

# Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar Bakıda ümumxalq yürüşü keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yürüşdə iştirak ediblər





(Əvvəli 1-ci səhifədə)

Münaqişənin əvvəlindən - 1991-ci ilin oktyabrından Xocalı mühasirəyə alınmışdı. Şəhərə aparan bütün avtomobil yolları bağlanmışdı, yeganə nəqliyyat vasitəsi yalnız helikopter idi. Xocalıya sonuncu helikopter isə 1992-ci il yanvarın 28-də enmişdi. Şuşa səmasında mülki helikopterin vurulması, 40 nəfər azərbaycanlının həlak olması ilə şəhərlə hava əlaqəsi də kəsilmişdi. Yanvarın 2-dən Xocalıya elektrik enerjisinin verilməsi dayandırılmışdı. Şəhər sakinləri ancaq öz fədakarlıqları və qəhrəmanlıqları sayəsində dayanır, müqavimət göstərir və yaşayırdılar. Şəhər çox az sayda avtomat və ov tüfəngləri ilə silahlanmış yerli özünümüdafiə dəstəsi, yerli milis qüvvələri və Milli Ordunun kiçik heyəti döyüşçüləri tərəfindən müdafiə olunurdu.

Fevralın ikinci yarısından başlayaraq Xocalı erməni silahlı dəstələri tərəfindən mühasirəyə alındı və hər gün topların, ağır texnikanın atəşinə, erməni dəstələrinin həmlələrinə məruz qaldı. Şəhərə amansız hücuma hazırlıq fevralın 25-də axşam sovet ordusunun 366-cı alayının hərbi texnikasının döyüş mövqelərinə çıxması ilə başladı. Xocalıya hücum tanklardan və zenit toplarından açılan 2 saatlıq atəşdən sonra həyata keçirildi. Şəhərə 5 istiqamətdən hücum edildiyinə görə, əhali Əsgəran istiqamətində qaçmaq məcburiyyətində qalmışdı. Amma tezliklə aydın oldu ki, bu da, məkrli hiylə imiş. Erməni silahlı dəstələri Naxçıvanik kəndi yaxınlığında əhalinin qarşısını kəsdi və onları güllləbarana tutdu. Qarlı aşırımlarda və meşələrdə taqətdən düşən insanların çoxu məhz Əsgəran-Naxçıvanik düzündə xüsusi qəddarlıqla qətlə yetirildi.

Ermənilərin Xocalıda azərbaycanlılara qarşı həyata keçirdiyi kütləvi qırğının soyqırımı aktı olmasını beynəlxalq hüququn normaları da təsdiqləyir. Belə ki, soyqırımı cinayətinin hüquqi məzmunu BMT Baş Assambleyasının 1948-ci il 9 dekabr tarixli 260 nömrəli Qətnaməsi ilə qəbul edilmiş "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya" ilə müəyyən edilib. Xocalı soyqırımı mahiyyət etibarilə beynəlxalq cinayət kateqoriyasına aiddir. Bu kateqoriyadan olan cinayətlərin əsas tərkibi İkinci Dünya müharibəsindən sonra yaradılmış beynəlxalq hərbi tribunalların nizamnaməsində ifadə olunub, sonradan həmin cinayət tərkibi Yuqoslaviya və Ruanda beynəlxalq cinayət tribunal-



larının nizamnamələrində, habelə Beynəlxalq Cinayət Məhkəməsinin Statusunda təkmilləşdirilməklə bir daha təsdiqini tapıb.

Xocalı soyqırımına hüquqi-siyasi qiyməti ilk dəfə ümummilli lider Heydər Əliyev verib. Ulu Öndərin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı Soyqırımı Günü haqqında" qərar qəbul edib. Ümummilli Lider 1994-cü il martın 1-də Xocalı soyqırımı ilə bağlı xüsusi Fərman imzalayıb. Sonrakı dövrdə Milli Məclisin qərarı ilə 26 fevral "Xocalı soyqırımı və milli matəm günü" elan olunub. Prezident Heydər Əliyev 1997-ci il fevralın 25-də "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" növbəti Fərman imzalayıb. "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanda deyilir ki, 1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə-yeksan olunması ilə nəticələndi.

Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması hər zaman Prezident İlham Əliyevin fəaliyyətinin mühüm istiqamətləri sırasındadır. Bu dəhşətli soyqırımının dünyada tanıdılmasında Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın da müstəsna xidmətləri var. Fondun "Xocalıya ədalət!" kampaniyasının sistemli fəaliyyətinin nəticəsidir ki, dünyanın 17 ölkəsi, ABŞ-ın 24 ştatı və İslam Əməkdaşlıq Təşkilatı Xocalıda ermənilər tərəfindən törədilmiş cinayətləri soyqırımı kimi tanıyan qərar və qətnamələr qəbul ediblər. "Xocalıya ədalət!" kampaniyasının məqsədi beynəlxalq ictimaiyyəti Xocalı soyqırımı haqqında məlumatlandırmaq, qətliama beynəlxalq aləmdə mənəvi-siyasi qiymət verilməsinə və bu qanlı qırğının qurbanlarının xatirəsinin anılmasına nail olmaqdır.

Təəssüf doğuran məqamlardan biri isə Xocalıda hərbi əməliyyatlara rəhbərlik edənlərin hələ də cinayət məsuliyyətinə cəlb olunmamasıdır. Britaniyalı jurnalist Tomas de Valın "Qarabağ - Qara bağ" kitabında əksini tapan bəzi faktlar, o cümlədən azərbaycanlıların qırğınında iştirak edən Ermənistanın eks-prezidenti Serj Sarkisyanın söylədikləri deyilənləri bir daha təsdiq edir. "Xocalı hadisələrinə qədər azərbaycanlılar fikirləşirdilər ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməzlər. Biz bu stereotipi qırmağa nail olduq", - deyən Sarkisyan "biz bu barədə bərkdən danışmağı üstün tuturuq" əlavə edib. Bu faktlar bir daha ermənilərin tarix boyu azərbaycanlılara qarşı yürütdüyü mənfur siyasətin, kin-küdurətin davam etdiyini, Xocalıda baş verənlərin əvvəlcədən planlaşdırılmış soyqırımı siyasətinin mühüm tərkib hissəsi olduğunu təsdiqləyir.

Xocalı soyqırımını törətməklə erməni millətçiləri məkrli məqsədlər güdürdü. Xalqı qorxutmaq, vahimə yaratmaq, onun mübarizə əzmini qırmaq, torpaqların işğalı faktı ilə barışmağa məcbur etmək. Amma hiyləgər və amansız düşmənin niyyətləri baş tutmadı. Azərbaycanda torpaqlarımızın müdafiəsi uğrunda hər an şəhid olmağa hazır olan vətənpərvər nəsil yetişdi və 30 illik işğala qəhrəmanlıqla son qoydu. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev deyib: "Ermənilərin fikri özlərinə getməsin. Onlar, bəlkə də, öz tarixi vətənini unuda bilərlər. Azərbaycan xalqı heç vaxt öz tarixi vətənini unuda bilməz. Bu gün qaçqın şəhərciklərində, Bakıda, başqa yerlərdə Dağlıq Qarabağdan, işğal edilmiş bölgələrdən olan ailələrdə doğulan uşaqlar bir amalla, bir arzu ilə yaşayırlar ki, doğma torpaqlarına qayıtsınlar". Milli ideyaya, güclü siyasi iradəyə əsaslanan bu fikir 2020-ci ilin sentyabrında real həyatda da öz təsdiqini tapdı. Ali Baş Komandan İlham Əliyevin çağırışı ilə ayağa qalxan igid oğullarımız bədnam düşmənin işğalçılıq siyasətinə, gündən-günə daha da böyüyən iddialarına, yeni işğalçılıq planlarına birdəfəlik son qoydular və xalqımızın tarixinə parlaq Qələbə yazdılar. Haqq-ədalət bərpa olundu.

Bu gün xalqımız XX əsrin ən dəhşətli qırğınlarından biri olan Xocalı soyqırımı qurbanlarının xatirəsini qalib ölkə, qalib xalq kimi yad edir. Düşməndən bütün şəhidlərimiz kimi, Xocalı soyqırımı qurbanlarının da qisası alınıb. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

# Şəhidlərin xatirəsinə həsr olunan tədbir keçirilib





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Ermənistan silahlı qüvvələrinin 2017-ci il fevralın 24-dən 25-nə keçən gecə bütün cəbhə boyu törətdiyi irimiqyaslı təxribatların qarşısını alarkən şəhid olan hərbi qulluqçularımız - Aqşin Abdullayev, Şahlar Nəzərov, Tural Haşımlı, Zülfü Qədimov və Zakir Cəfərovun xatirəsinə həsr olunan anım tədbiri keçirilib.

Anım tədbirində Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov, general-mayor Mayis Bərxudarov və "N" hərbi hissəsinin hərbi qulluqçuları, ictimaiyyət nümayəndələri və şəhid ailələrinin üzvləri iştirak ediblər.

Əvvəlcə Ulu Öndərin büstü, eləcə də şəhidlərin məzarı və abidə kompleksinin önünə gül dəstələri qoyulub, ümummilli lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edənlər şəhidlərin şərəfli ömür və döyüş yolundan bəhs edib, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində ordumuzun qazandığı qələbədən, tarixi torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə Azərbaycan oğullarının göstərdiyi qəhrəmanlıq və şücaət nümunələrindən danışıblar.

Şəhidlərin yaxınları göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinə minnətdarlıqlarını bildiriblər.

Sonda məktəblilər tərəfindən şəhidlərimizə həsr olunan şeirlər səsləndirilib, xatirə şəkli çəkdirilib.








# Xocalım - can yandıran acım...

*<u>Ağappaq, lopa-lopa yağan gözoxşayan qar... Elə aramla, sakit-sakit yağırdı ki... Əlində isti çay pəncərədən təbiətin bu gözəlliyini seyr edən üçün möhtəşəm mənzərə idi... Amma lopa-lopa yağan qarda düşmənlərdən ailəsini xilas etməyə çalışarkən itirdiyi beş yaşlı qızını axtaran ata üçün bu qar sadəcə dəhşət saçırdı. Axtarmadığı yer qalmamışdı, axı bu qarda, soyuqda hara gedə bilərdi qızcığaz.</u>*




Düşündükcə dəhşətə gəlirdi ata. Yoxsa körpəsi düşmən əlinəmi keçmişdi? Yox, yox... Bunu düşünmək belə atanın ağlını başından çıxarırdı, çarəsizlikdən nə edəcəyini bilmir, sığınacaqda qızını həyəcanla gözləyən anasına nə deyəcəyini düşünürdü yazıq ata... Birdən qarşıda bir qızartı diqqətini çəkdi, yaxınlaşanda yerindəcə donub qaldı... Bu onun qızı idi, qanına qəltan edilmiş körpə qızı. Bütün güllə darağı qarnına boşaldılmışdı qızın, beş yaşlı bir qızcığazdan bu qədərmi qorxmuşdu mənfur düşmən, bir atəş səsi yetərdi o körpənin ölməsinə, bütöv bir güllə darağı nə idi, belə dəhşət olardımı, bu dərdə dözmək olardımı?.. Axı qızı həmişə deyərdi ki, mənim atam hamıdan güclüdür. Bəs hara getmişdi atasının gücü, qüvvəti, niyə əlini uzadıb qızına toxunacaq qədər gücü yox idi, necə olmuşdu ki, körpəsini qoruya bilməmişdi?.. Var gücü ilə haray çəkmək istədi ata, amma səsi çıxmadı. Ehtiyatla əyilib qızının donmuş nəşini qollarına aldı...

Otuz il bundan öncə şaxtalı bir qış günündə - fevralın 26-da yaşanmış minlərlə dəhşətli hadisələrdən sadəcə biri idi bu.

Həmin gün yer üzündə tayı-bərabəri olmayan dəhşət yaşadı Xocalı. Elə bir dəhşət ki, 30 il keçməsinə baxmayaraq nə yaramız qaysaq bağlayır, nə ağrımız azalır.

Tarixin künc-bucağında sığıntı kimi yaşayan mənfur düşmən "dənizdən-dənizə böyük Ermənistan" qurmaq üçün hər cür vəhşiliyə heç fikirləşmədən "hə" deyirdilər. Hələ 1905-ci ildə Azərbaycan xalqının görkəmli ədiblərindən biri olan Ö.F.Nemanzadə "İrşad" qəzetində yazırdı: "Ermənilər bizi İrəvandan, Qarabağdan qovmağa çalışacaqlar. Biz bilməliyik ki, ermənilər bu yolda hər bir alçaqlığa əl ata bilərlər. Onlar öz cinayətləri üçün tədricən planlar hazırlayır və onları həyata keçirməyə yollar axtarırlar".

Tarix göstərdi ki, dahi insanlar, həqiqətən, uzaqgörən olurlar, ədibin dedikləri sözbəsöz özünü doğrultdu. Öz xam xəyallarını həyata keçirmək üçün ermənilər fevralın 25-dən 26-na keçən gecə Xocalıda elə cinayətlər törətdilər ki, sözlər aciz qalır bu dəhşəti anlatmağa, izah etməyə... Ata-ananın gözü qarşısında övladının başını kəsmək, hamilə qadının qarnını yarıb uşağı çıxartmaq, körpələri süngüyə keçirtmək, qocaların əlini, ayağını kəsmək, diri-diri insanların dərisini soymaq... Bunlar sadəcə həmin gün törədilən vəhşiliyin bir qismidir, insanlığa sığmayan qəddarlıq, ağılın, düşüncənin dərk etməyə qadir olmadığı murdarlıqdır. Düşünürəm ki, tarix də utanır səhifələrində belə qəddarlığı əks etdirdiyi üçün, gələcək nəsillərə belə dəhşətləri çatdırdığı üçün. Amma mənfur düşmən etdiklərindən nə utandı, nə üzr istədi, işin qəribə tərəfi bu idi ki, canilikləri dilə gətirməkdən də çəkinmədi...

Qarabağ müharibəsində imzası olanlardan biri, hadisələrin iştirakçısı və icraçılarından olan Zori Balayan "Ruhumuzun dirçəlişi" adlı kitabında yazır: "Xocalını ələ keçirdiyimiz zaman bir evə girdik, Xaçatur adında bir əsgərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarladı. Mən ixtisasca həkim olduğum üçün üstümdə olan tibb bıçağı ilə uşağın başının, sinəsinin, qarnının dərisini soydum. Saata baxdım, düz yeddi dəqiqədən sonra uşaq öldü. Ruhum sevinclə qürrələndi. Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim. Bildim ki, hər bir erməni bizim etdiklərimizlə fəxr edəcək".

Bəli, milli mənliyi olmayan, heç bir mənəvi dəyərə malik olmayan ermənilər ancaq belə murdar cinayətlərlə fəxr edə bilər, gələcək nəsillərinə ancaq belə alçaq əməllər "ərməğan" edib gedə bilərlər.

Xocalı hadisəsindən 28 il sonra - 7 oktyabr 2020-ci ildə bütün Azərbaycan xalqının üzəyinin cəbhədəkilərlə bir vurduğu anda Ali Baş Komandanın belə bir tweet gəldi: "Müzəffər Azərbaycan Ordusu Xocalının Qarabulaq, Moşxmaat kəndlərini işğaldan azad etmişdir! Eşq olsun, Azərbaycan Ordusuna, Qarabağ Azərbaycandır".

İllər keçsə də, yaddaşımızın itməsinə izn verməyəcək, gələcək nəsillərə həqiqəti olduğu kimi çatdıracaq, dostunu, düşmənini düzgün seçməyi öyrədəcəyik. Canları bahasına Vətən torpaqlarını azad edərək onlara firavan bir gələcək bəxş edən şəhidlərimizin xatirəsini həmişə əziz tutan, mənəvi dəyərlərinə, keçmişinə sadiq, mərd övladlar olmağı onlara aşılayacağıq.

**Günel BAĞIROVA**
**Naxçıvan Qarnizonu tam orta məktəbin müəllimi**

# Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib



*Azərbaycan Respublikası Prezidentinin "Xocalı soyqırımının otuzuncu ildönümü haqqında" Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində silsilə tədbirlər keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Müdafiə Nazirliyinin rəhbər heyəti Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar Bakıda keçirilən ümumxalq yürüşündə iştirak edib.

Azərbaycan Ordusunda keçirilən anım mərasimlərində əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və



ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın azadlığı uğrunda şəhid olanların, eləcə də Xocalı faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi Orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Mərasimlərdə çıxış edənlər erməni millətçiləri tərəfindən xalqımıza qarşı məqsədyönlü şəkildə etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasətinin həyata keçirildiyini vurğulayıblar. Həmçinin Ermənistanın təxribatlarına və hərbi təcavüzünə cavab olaraq 2020-ci il sentyabrın 27-dən başlanan 44 günlük Vətən müharibəsindən, Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı qələbədən və tarixi ədalətin bərpa edilməsindən danışıblar.

Silsilə tədbirlərdə Xocalı soyqırımının dünyaya tanıdılması istiqamətində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin, eləcə də Heydər Əliyev Fondunun həyata keçirdiyi məqsədyönlü tədbirlər xüsusi



qeyd olunub.

Anım tədbirlərində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, eləcə də Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin, rayon mədəniyyət şöbələrinin nümayəndələrinin və məktəblilərin hazırladığı ədəbi-bədii kompozisiyalar, fotosərgilər, videoçarxlar nümayiş etdirilib.

Hərbi qulluqçular tərəfindən "Xocalı soyqırımı" abidələri ziyarət olunub, ictimai-siyasi hazırlıq dərslərində mövzuya dair mühazirələr oxunub və faciənin şahidləri ilə görüşlər keçirilib.

* * *

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən tədbirdə çıxış edənlər bildirdilər ki, Xocalı soyqırımı Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin ən dəhşətlisidir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə bütün beynəlxalq hüquq normalarını pozmuş Ermənistan silahlı qüvvələri tərəfindən Xocalıya ağır hərbi texnika yeridilib və dinc əhaliyə misli görünməmiş qəddarlıqla divan tutulub. Bəşəriyyətə qarşı törədilmiş bu dəhşətli cinayət əməli nəticəsində 613 nəfər azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilib, onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olub. Nəticədə 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 132 uşaq valideynlərindən birini itirib. Bundan başqa, 487 dinc sakin ağır yaralanıb, 1275 nəfər girov götürülüb. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi naməlumdur.

Xocalı soyqırımına ilk dəfə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə hüquqi-siyasi qiymət verilib. Bu siyasətin uğurla davam etdirilməsinin nəticəsidir ki, dünyanın bir çox ölkə və şəhərlərində həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq təbliğat kampaniyası çərçivəsində XX əsrin ən dəhşətli cinayətlərindən biri olan Xocalı faciəsi dünyada soyqırımı aktı kimi tanınıb və Xocalı soyqırımı qurbanlarının qisası Azərbaycanın rəşadətli ordusu tərəfindən döyüş meydanında alınıb. Xocalı soyqırımının 30-cu ildönümünü Xocalının qisasının alındığı gün kimi yad edirik.

Tədbirdə hərbi hissələrin bədii özfəaliyyət kollektivləri və Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdləri Xocalıya həsr olunmuş səhnəcikləri canlandırdı və ədəbi-bədii kompozisiya ilə çıxış etdilər.

Sonda Xocalı soyqırımından və ordumuzun qüdrətindən bəhs edən videoçarxlar göstərildi.



**Nəriman NƏCƏFOV**
**Naxçıvan Muxtar Respublikası**



Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində də Xocalı soyqırımına həsr olunmuş "Yanmış şəhərin fəryadı" tədbir keçirildi. Tədbirdə Müdafiə Nazirliyinin nümayəndələri, Vətən müharibəsi iştirakçıları, əsgərlər iştirak etdilər.

Tədbirdə çıxış edən polkovnik Elvin Əzizov mərasim iştirakçılarına Xocalı faciəsi barədə məlumat verdi. "XX əsrdə insanlığa qarşı yönəlmiş və dəhşəti özündə əks etdirən Xocalı soyqırımı cinayətkar erməni rejiminin və onların havadarlarının soydaşlarımıza qarşı olan məkrli niyyətinin bariz göstəricisi oldu. Azərbaycan xalqının tarixində 30 il bundan əvvəl fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri və sovet ordusunun 366-cı motoatıcı alayı tərəfindən törədilən bu soyqırımı, əslində, etnik təmizləmə planının bir



parçası idi. Həmin gecə azğın silahlı dəstələr heç bir beynəlxalq hüquq normalarına məhəl qoymadan, qarlı, şaxtalı havada camaatı ata-baba yurdlarından didərgin salaraq, onların başına olmazın müsibətlərini gətiriblər".

Zabit sonda bu cür tədbirlərin keçirilməsinin zəruriliyini bildirərək qeyd edib ki, komandirlər tabeliyindəki şəxsi heyəti vətənpərvər yetişdirməyə və tarixi həqiqətləri onlara hər zaman dərindən öyrətməyə borcludurlar.

Zabit Elmar Zeynalabdinov Xocalı soyqırımına tarixi, siyasi və hüquqi qiymətin verilməsində ümummilli lider Heydər Əliyevin əvəzsiz rolu olduğunu qeyd etdi. Bildirdi ki, məhz Ulu Öndərin qətiyyəti nəticəsində faciənin əsl mahiyyəti və günahkarları aşkara çıxıb. "Həmçinin Xocalı reallığının dünya auditoriyasının diqqətinə çatdırılmasında, xalqımızın başına açılan bu antihumanizm əməllərin terror aktı kimi təsdiqlənməsində ümummilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən məqsədyönlü və sistemli tədbirlər həyata keçirilib. 2020-ci ilin 27 sentyabrında başlayan Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında Azərbaycan Ordusu düşməni məhv edərək, tarixi Zəfər qazandı, düşməndən qisas alındı. Əliyalın əhaliyə qarşı törədilən Xocalı soyqırımında iştirak edən canilərin 44 günlük Vətən müharibəsində məhv edilməsi ilə çoxdan gözlənilən qisas alındı və biz bilirik ki, bu gün Xocalı faciəsinin qurbanı olan soydaşlarımızın ruhu şaddır".

Çıxışlar başa çatdıqdan sonra tədbirin bədii hissəsində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi tərəfindən Xocalı soyqırımına həsr olunmuş kompozisiyalar tədbir iştirakçılarına təqdim olundu.

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

**(Ardı 5-ci səhifədə)**

# Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib



(Əvvəli 4-cü səhifədə)

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Xocalı faciəsinin 30 illiyi ilə bağlı "Yanmış şəhərin fəryadı" adlı ədəbi-bədii gecə keçirilib. Gecədə məktəbin zabit, müəllim, kursant heyəti iştirak edib.

Tədbirdə təşkil edilən geniş sərgidə Xocalı faciəsini əks etdirən fotoşəkillər, soydaşlarımızın başına gətirilən dəhşətli görüntülər və kitablar nümayiş olunub.

Daha sonra erməni cəlladlarının Xocalıda törətdikləri qətliamlar yaradıcı heyətin hazırladığı tamaşa əsasında təqdim edilib.

Ədəbi-bədii gecənin sonunda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin rəis müavini, Vətən Müharibəsi Qəhrəmanı polkovnik Nizami Mövlanov çıxış edərək Xocalı faciəsinin baş verdiyi o ağır günləri xatırlayaraq, xalqımızın başına gətirilən müsibətlərin unudulmadığını, Vətən müharibəsində qisasımızın alındığını, düşmənə ağır zərbələr endirildiyini vurğulayıb.

* * *




Azərbaycan Hərb Tarixi Muzeyinin təşkilatçılığı ilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində Xocalı soyqırımına həsr olunan "Xocalı soyqırımı: dünyanın gözü önündə vəhşət və bərpa olunmayan ədalət" adlı anım tədbiri keçirildi.

Tədbirdə Azərbaycan Hərb Tarixi Muzeyinin kollektivi, Azərbaycan Ali Hərbi Məktəbin şəxsi heyəti və kursantlar, ictimaiyyət nümayəndələri iştirak etdilər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan, həmçinin Xocalı faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.




Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə "Xocalı soyqırımı qan yaddaşımızda" adlı məruzə ilə çıxış edərək bildirdi ki, Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalmışdır. Uzun zaman bütün azərbaycanlıların Qarabağ, Xocalı yarası qanayır, dinməyirdi. Şanlı qələbəmizlə yekunlaşan Vətən müharibəsi zamanı igid və mərd oğullarımız Xocalı faciəsində tökülən qanın qisasını hərb meydanında savaşaraq aldılar", - deyərək qeyd etdi.

Daha sonra Azərbaycan Ali Hərbi Məktəbin kursantları faciəyə həsr olunmuş kompozisiya və vətənpərvərlik mahnıları səsləndirdilər.

Tədbirin sonunda Xocalı faciəsinə həsr olunan sənədli film nümayiş edildi.

**Hüsniyyə İDRİSOVA**
**"Azərbaycan Ordusu"**



Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsində Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar keçirilən ədəbi-bədii gecədə fakültənin zabitləri, müəllimləri və kursantları iştirak edirdilər.

Tədbiri Hərbi Tibb Fakültəsinin rəisi tibb xidməti polkovniki Çingiz Əlləzov açaraq bildirdi ki, vəhşiləşmiş erməni silahlı dəstələri keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının qüvvələri ilə birlikdə 30 il bundan əvvəl fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində analoqu olmayan qırğın törətdilər. Bu soyqırımı aktı nəticəsində bəzi ailələr bütünlüklə məhv edildi, mülki əhali görünməmiş qəddarlıqla qətlə yetirildi.

Xocalı soyqırımına siyasi qiymətin verilməsi məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu haqda öz fikrini Heydər Əliyev belə ifadə etmişdir: "...1994-cü il 26 fevral ərəfəsində mən Milli Məclisə təklif verdim. Milli Məclis qərar qəbul etdi və Xocalı faciəsi Xocalı soyqırımı günü elan olundu. Bu gün bizim tariximizdə, bizim təqvimimizdə matəm günüdür, hüzn günüdür. Bunu biz qanunla qəbul etdik...".

Tibb xidməti polkovniki o müdhiş gecədə əllərini, ayaqlarını don vurmuş 2-8 yaş arası 10-dan çox uşağın müalicə üçün qospitala gətirildiyindən qəhərlənərək söz açdı. "30 il keçməsinə baxmayaraq hələ də o körpələrin qışqırtıları qulaqlarımdadır".

44 günlük Vətən müharibəsində qazanılan Zəfərə toxunan Fakültə rəisi bildirdi ki, ermənilər Azərbaycan xalqının XX əsrdə üzləşdiyi dəhşətli Xocalı faciəsini törətməklə xalqımızı qorxutmaq, mübarizə əzmini qırmaq, tarixi torpaqlarımızın bir qisminin itirilməsi ilə barışmağa məcbur etmək istəyirdilər. "Xalqımız öz dövlətinin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə daha da mətinləşdi, qəhrəmanlıq və dəyanət göstərdi. 30 ildən sonra işğal altında olan torpaqlarımızın azadlığına nail olaraq xalqımız mübarizə əzminin qırılmadığını bir daha nümayiş etdirdi. Prezident, Ali Baş Komandan İlham Əliyevin uğurlu siyasəti və rəşadətli ordumuzun əzmi sayəsində Vətən müharibəsi Azərbaycanın tam qələbəsi ilə başa çatdı".

Tədbirdə mayor Yaqub Qasımov, çavuş Mələk İmanova, kursantlar Nicat Nəsibli, Taleh Abbasov, Coşqun Qasımzadə Xocalı soyqırımına beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət verilməsinin vacibliyini bildirdilər. Ermənistanın Xocalı soyqırımı ilə təkcə Azərbaycana deyil, bütün bəşəriyyətə qarşı ağır cinayət törətdiyini qeyd etdilər.

Sonda Xocalı faciəsinin vəhşətlərini əks etdirən sənədli film nümayiş olundu.

**Baş leytenant**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xocalı soyqırımının 30-cu ildönümü haqqında imzaladığı sərəncam birlik və birləşmələrdə, ayrı-ayrı qoşun növlərində, hərbi hissələrdə, xüsusi təyinatlı təhsil müəssisələrində geniş miqyasda qeyd olunur. Bu, tarixə ehtiram olmaqla, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının daha yüksək səviyyədə formalaşmasında mühüm əhəmiyyətə malikdir. Vətən müharibəsində qazanılan Zəfərdən sonra bu tədbir həm də şəhidliyə, şəhidlərə ehtiram kimi təşkil edilir.

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Xocalı soyqırımının 30 illiyinə həsr olunan tədbir keçirildi.

Polkovnik Müslüm Nəsirov Xocalı faciəsinin baş vermə səbəblərindən, keçmiş sovet ordusunun dislokasiya yeri Xankəndi olan 366-cı motoatıcı alayının iştirakı ilə necə baş verdiyindən, nəticələrindən, hərbi və insanlığa qarşı törədilən cinayətlərdən danışdı.

Polkovnik Müslüm Nəsirov Xocalı faciəsini dünyanın onlarla dövlətinin tanıdığını da diqqətə çatdırdı, digər dövlətlərin bu faciəyə münasibətinin də dəyişəcəyinə əminliyini bildirdi. Onu da qeyd etdi ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə aparılan "Xocalıya ədalət!" beynəlxalq kampaniyası Xocalı həqiqətlərinin dünyaya yayılmasında mühüm işlər görür...

Tədbirdə Xocalı soyqırımı haqqında sənədli film göstərildi. Bu film Xocalı soyqırımının nəticələrinin tarixi görüntüləridir və soyqırımın törədilmə mexanizmi haqqında kifayət qədər dolğun informasiya verir.

Sonda kursantlar vətənpərvərlik şeirləri və mahnıları ifa etdilər.

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

## Mövzu: 31 Mart - Azərbaycanlıların soyqırımı günüdür.

**Suallar:**

**1. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli Fərmanı və bu fərmanın tarixi əhəmiyyəti.**

**2. Azərbaycan xalqına qarşı ermənilər tərəfindən aparılmış genosid siyasətinin məzmunu, tarixi xronikası və ağır nəticələri.**

### Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli Fərmanı və bu fərmanın tarixi əhəmiyyəti

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır. Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.

1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi torpaqların zəbti başlandı. Qısa müddətdə bu siyasət gerçəkləşdirilərək, ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında "erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı kütləvi qırğınlar həyata keçiriblər. Ermənilərin Bakıdan başlanan kütləvi qırğınları Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə edib. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirilib.

Birinci Dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin martından etibarən əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başladı. Həmin günlərdə ermənilərin törətdiyi cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə fövqəladə istintaq komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımının, ilkin mərhələdə Şamaxıdakı vəhşiliklərin, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. 1919-1920-ci il martın 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində, bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə köçürülməsinə dövlət səviyyəsində nail oldular.

Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-nin digər bölgələrindən soydaşlarımız təqibə məruz qalaraq kütləvi surətdə qovulur. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş verir.

1988-ci ildən ortaya atılan qondarma "Dağlıq Qarabağ" konfliktinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi. 1990-cı ilin yanvarında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı öldürüldü və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu.

1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdular. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə-yeksan edilməsi ilə qurtardı.

Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edib. Xalqımıza qarşı törədilmiş bütün soyqırımlara siyasi qiymət vermək məqsədilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli Fərmanı imzaladı. Həmin fərmanla 31 mart azərbaycanlıların soyqırımı günü kimi tarixə yazıldı.

### Azərbaycan xalqına qarşı ermənilər tərəfindən aparılmış genosid siyasətinin məzmunu, tarixi xronikası və ağır nəticələri

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində də xüsusi qəddarlıqla həyata keçirilmişdir. Təkcə 1918-ci ilin mart-aprel aylarında Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda ermənilər 50 mindən çox azərbaycanlını qətlə yetirmiş, evlərini talan etmiş, on minlərlə adamı öz yurd-yuvalarından didərgin salmışlar.

Yalnız Bakıda 18 minə yaxın soydaşımız xüsusi amansızlıqla qətlə yetirilmiş, Şamaxı qəzasının 58 kəndi dağıdılmış, 8 min nəfərədək adam öldürülmüş, Quba qəzasının 122 müsəlman kəndi yerlə-yeksan edilmişdi. Qarabağın dağlıq hissəsində 750-dən çox, Zəngəzur qəzasında 115 azərbaycanlı kəndi məhv edilmiş və bu qəza üzrə 10068 azərbaycanlı öldürülmüş və ya şikəst edilmiş, 50 min azərbaycanlı qaçqın düşmüşdür. İrəvan quberniyasında 211, Qars vilayətində 22 azərbaycanlı kəndi dağıdılmış, yandırılmış və talan edilmişdi. Cavanşir qəzasının 28 kəndi, Cəbrayıl qəzasının 17 kəndi tamamilə yandırılmış, əhalisi məhv edilmişdir. İrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərindən birində göstərilir ki, qısa müddət ərzində bu tarixi Azərbaycan şəhərində və onun ətrafında 88 kənd dağıdılmış, 1920 ev yandırılmış, 135 min azərbaycanlı məhv edilmişdir. Erməni cəza dəstələrinin törətdiyi vəhşiliklər və daşnak hakimiyyəti dövründə yürüdülən "türksüz Ermənistan" siyasəti nəticəsində İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 1916-cı ildə 375 min nəfərdən 1920-ci ildə 70 min nəfərə enmişdir.

1988-ci ildə keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli mövqeyindən istifadə edən Ermənistan Respublikası Dağlıq Qarabağ Muxtar Vilayətini zorla qəsb etməyə cəhd göstərməklə yanaşı, Ermənistan SSR Ali Soveti sessiyasının məxfi göstərişinə əsasən, 1988-ci il noyabrın 22-dən 28-dək müddət ərzində soydaşlarımız yaşayan 22 rayonda 170 sırf və 94 qarışıq (ermənilərlə) yaşayış məskənləri azərbaycanlılardan təmizlənmiş, nəticədə 200 mindən artıq azərbaycanlı 18 min müsəlman kürd, min nəfər rusdilli əhali Azərbaycana pənah gətirmişdir. Həmin vaxt 216 azərbaycanlı vəhşicəsinə qətlə yetirilmişdir.

Monoetnik Ermənistan dövləti yaratmağa nail olan Ermənistan rəhbərləri onu dəstəkləyən dövlətlərin hərbi-sənaye potensialından qidalanaraq "Dağlıq Qarabağ Muxtar Vilayətini", habelə, 7 ətraf rayonu (Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Cəbrayıl, Ağdam və Füzuli rayonlarını) 30 il ərzində işğalda saxlayaraq xarabazara çevirmişdir. Bu işğal nəticəsində 20 minə yaxın Azərbaycan vətəndaşı öldürülmüş, 4 minə yaxın əhali girov götürülmüşdür ki, onların da əksəriyyətini uşaqlar, qadınlar və qocalar təşkil edirlər. Təkcə XX yüzillikdə bir milyona yaxın azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə öldürülmüş, 1,5 milyondan artıq soydaşımız indiki Ermənistan ərazisindən deportasiya edilmişdir. 1918-ci ildə imzalanan Batum müqaviləsinə əsasən, Azərbaycan torpaqları hesabına yaranmış və cəmi 9 min kv. km. ərazisi olan Ermənistan 1988-ci ildə onu 30 min kv. kilometrə çatdırmışdır.

Azərbaycanın milli problemlərinin beynəlxalq səviyyədə qaldırılması, erməni vandalizminin ifşası istiqamətindəki əzmkar və qətiyyətli fəaliyyəti bu gün Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən prinsipiallıqla davam etdirilir. Məhz onun rəhbərliyi altında Azərbaycanın həyata keçirdiyi hücum diplomatiyası bu gün təcavüzkar Ermənistanı çıxılmaz vəziyyətdə qoymuşdur. Azərbaycan rəhbərliyi bütün görüşlərində, xarici ölkələrə səfərlərində, çıxışlarında Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirən erməniləri ifşa etmiş, soyqırımı cinayəti törədənləri və ona göz yumanları kəskin tənqid etmiş, dünya ictimaiyyətini erməni riyakarlığına son qoymağa çağırmışdır. Azərbaycanın haqq işi, o cümlədən ona qarşı edilən tarixi ədalətsizliyin bərpası istiqamətində atdığı addımlar tədricən beynəlxalq ictimaiyyət tərəfindən anlaşılır və qəbul edilir. Azərbaycanlılara qarşı ermənilərin törətdikləri soyqırımların tanınması da gec-tez tarixi ədalətsizliyə verilən hüquqi-siyasi qiymət kimi dünya dövlətləri tərəfindən qəbul ediləcəkdir. Ermənilərin "soyqırıma məruz qalan xalq" kimi deyil, məhz soyqırımı törədən xalq kimi tanınacağı tarix çox da uzaqda deyil.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində əldə etdiyi heyrətamiz qələbə nəticəsində XX əsrin sonlarında erməni qəsbkarları tərəfindən işğal edilmiş torpaqları azad edərək dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı. Azərbaycan dövlətinin və Azərbaycan xalqının apardığı çoxillik mübarizədə Azərbaycanın ərazi bütövlüyü təmin olundu.

Azərbaycan xalqının ermənilərin terror, vandalizm, barbarlıq əməllərinə məruz qalmaması üçün hər bir hərbi qulluqçu öz vəzifə borcunu vicdanla yerinə yetirməli, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə, hərbi biliklərə dərindən yiyələnməli, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla güclü və məğlubedilməz Azərbaycan Ordusunun inkişafına nail olmalıdır.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# İdman yarışları şəxsi heyətə yüksək döyüş ruhu aşılayır






Ölkəmizin ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində olduğu kimi, idman sahəsi də Azərbaycan dövlətçiliyinin təşəkkülündə və inkişafında misilsiz rol oynamış ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin yürütdüyü siyasət bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycanda idmana göstərilən qayğının nəticəsi olaraq bu gün respublikamızda idmana böyük maraq və diqqət var. Bir çox idman növləri üzrə keçirilən Beynəlxalq turnirlərdə idmançılarımızın istər fərdi, istərsə də komanda şəklində nailiyyətlərinin şahidi oluruq. Üçrəngli bayrağımız beynəlxalq idman arenalarında dalğalanır, xarici ölkələrdən eşidilən Dövlət Himnimizin sədaları idmançılarımızın qələbəsinin xəbərçisi olur.

Vətənimizin müdafiəsində duran hərbi qulluqçularımız da idmana böyük həvəs və maraq göstərirlər. Döyüş hazırlığı ilə yanaşı, hərbi qulluqçularımızın fiziki cəhətdən möhkəm, güclü və sağlam olmaları onların döyüş qabiliyyətlərini daha da artırır. Ordu sıralarında xidmət edən hərbi qulluqçular hərbi xidməti ilə yanaşı, idman fəaliyyətini də yüksək səviyyədə davam etdirirlər. Onlar müxtəlif beynəlxalq yarışlarda ölkəmizi layiqincə təmsil edirlər.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin idmana və idmançılara göstərdiyi diqqət və qayğısı ordu idmanından da yan ötmür. Həmin diqqətin nəticəsidir ki, bu gün istər respublikada, istərsə də Beynəlxalq idman arenalarında hərbçilərin uğurlu çıxışlarının şahidi oluruq. Dəfələrlə hərbçilərimizin, olimpiadaların, Avropa və Dünya çempionatlarının qalibi olduqlarını bilirik. Bunlar da əsgərlərimizin fiziki sağlamlığına dövlətimiz tərəfindən xüsusi qayğı ilə yanaşıldığının bir daha sübutudur.

Ordu quruculuğunda bu sahə də daim diqqət mərkəzində saxlanılır, şəxsi heyətin idmana marağının artması istiqamətində müxtəlif işlər görülür. Azərbaycan Ordusunda idman yarışlarının keçirilməsi haqqında müdafiə nazirinin əmrinə əsasən, hər il ordu miqyasında müxtəlif idman növləri üzrə yarışlar, birinciliklər, kütləvi-idman tədbirləri keçirilir.

Növbəti belə tədbir 2022-ci il 21-24 fevral tarixlərində baş tutdu. Quru Qoşunlarının cari il üçün hazırlıq planına əsasən "N" hərbi hissəsində daşqaldırma üzrə birincilik keçirildi. Açılış mərasimində əvvəlcə ümummilli lider Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət Himni səsləndirildi.

Birinciliyin keçirilməsinə və təşkilatçılığına rəhbərlik edən Quru Qoşunlarının zabiti polkovnik-leytenant Elman Hadıyev çıxış edərək ordu quruculuğunun bütün




sahələrində olduğu kimi hərbi qulluqçuların fiziki hazırlığının da rəhbərlik tərəfindən daim diqqət mərkəzində saxlanıldığını vurğuladı. Birinciliyin keçirilməsi və təhlükəsizlik qaydaları haqqında məlumat verən zabit iştirakçıların hər birinə uğurlar arzuladı.

Yarışda iştirak edən hərbi qulluqçuların qeydiyyatından sonra hakimlərin iştirakı ilə püşkatma keçirildi və birincilik start götürdü.

Daşqaldırma üzrə Quru Qoşunları birinciliyində 15 komanda üzrə 71 hərbi qulluqçu 6 çəki dərəcəsində mübarizə apardı. Birincilik daşqaldırma yarışlarının proqramına daxil olan birdən və təkanla qaldırma üzrə keçirildi.

Gərgin mübarizə əzmində keçən yarışların sonunda şəxsi hesabda əsgər Samir Muradov (60 kiloqram), kiçik çavuş Şamo Ələsgərov (65 kiloqram), çavuş Nurlan Salamzadə (70 kiloqram), baş çavuş Abdulla Abdullayev (80 kiloqram), əsgər Niyal Əzimov (90 kiloqram) və gizir Sahib Nəsibov (90 kiloqramdan artıq) birinci yerə layiq görüldülər. Yekun nəticələrə əsasən komanda hesabında birinci yerə "Beyləqan", ikinci yerə "Kəlbəcər" və üçüncü yerə "Bərdə" komandaları çıxdılar.

Birinciliyin təntənəli bağlanış mərasimində hərbi orkestrin müşayiəti ilə qaliblərə fəxri fərman, diplom və kubok təqdim edildi.

Polkovnik-leytenant Elman Hadıyev göstərdikləri əzmkar mübarizəyə görə bütün idmançıları təbrik etdi. Belə yarışların keçirilməsinin şəxsi heyətin döyüş, fiziki və mənəvi-psixoloji hazırlığına müsbət təsirindən söz açdı. "İnsanın mənəvi və fiziki sağlamlığında mühüm rol oynayan idmanın hərbi qulluqçular arasında geniş miqyasda yayılması, kütləviləşməsi onların bu sahəyə fəal surətdə cəlb olunması qarşımızda duran ən mühüm vəzifələrdəndir. Sərhədlərimizin keşiyində dayanan mərd və cəsur gənclərimizin bacarıqlı hərbçilər kimi formalaşmasında idmanın rolu əvəzsizdir. Fiziki hazırlığın həm döyüş qabiliyyətinin artırılmasında, həm də sağlamlığın möhkəmləndirilməsində rolu böyükdür. Hərbi qulluqçular idmanla nə qədər çox məşğul olsalar, o qədər fiziki cəhətdən möhkəm, güclü və sağlam olarlar. Yüksək fiziki hazırlıq onların döyüş qabiliyyətinə də müsbət təsir göstərir. İdmanla məşğul olan hərbi qulluqçu daha möhkəm, dözümlü və yüksək əhval-ruhiyyədə olur. Yüksək fiziki göstəricilərə malik olan şəxsi heyət döyüş tapşırıqlarını çevik və dəqiq yerinə yetirir. Buna görə də şəxsi heyətin fiziki hazırlığı rəhbərlik tərəfindən daim diqqətdə saxlanılır. Hərbçilərimizin həm gündəlik, həm də peşəkar idman fəaliyyəti ilə məşğul olmaları üçün bütün hərbi hissələrdə müasir idman avadanlıqları ilə təchiz olunmuş idman klubları və şəhərcikləri, trenajor otaqları yaradılıb. Şəxsi heyət də bu sahəyə böyük həvəs və maraq göstərir.

Hərbçilərimizin döyüş hazırlığı ilə yanaşı, fiziki hazırlıqlarının da yüksək olması döyüş meydanında öz təsdiqini tapdı. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında tarixi qələbəmizlə başa çatan İkinci Qarabağ müharibəsində Azərbaycan əsgərinin döyüş tapşırıqlarını çevik və cəld yerinə yetirməsi, həmçinin fiziki gücü, dözümlülüyü qələbəmizi şərtləndirən amillərdən oldu", - zabit Elman Hadıyev dedi.

Zabit müdafiə nazirinin təsdiq etdiyi plana əsasən il ərzində Azərbaycan Ordusunda, həmçinin bir çox idman birinciliklərinin keçiriləcəyini də bildirdi. Qalibləri təbrik edərək onlara şərəfli xidmətlərində və idman fəaliyyətlərində uğurlar arzuladı.

Birinciliyin katibi mayor İlkin İbrahimov qalibləri təbrik edərək, Azərbaycan Ordusunda idmanın müxtəlif növləri üzrə mütəmadi olaraq keçirilən yarışların şəxsi heyətə yüksək döyüş ruhu aşıladığını qeyd etdi. Azərbaycanın dünyada idman ölkəsi kimi tanındığını, hərbi qulluqçularımızın döyüş meydanında olduğu kimi, idman arenalarında da öz sözünü dediyini vurğuladı. Birinciliyin keçirilməsinə ev sahibliyi edən hərbi hissənin rəhbərliyinə təşəkkürünü bildirdi. Zabit istər komanda, istərsə də fərdi mübarizələrin şəffaf və qaydalar çərçivəsində baş tutduğunu dedi. "Bütün çəki dərəcələrində idmançılar gərgin mübarizə apardılar. Yarışın əsasnaməsinə uyğun olaraq, hakimlərin protokolları əsasında fərdi və komanda şəklində qaliblər müəyyən olundu. Göstərdikləri əzmkarlığa və mübarizliyə görə bütün yarış iştirakçılarını təbrik edirəm. Burada iştirak edən hər kəs qalibdir. Çünki biz qalib ordunun hərbçiləriyik."

Fevralın 21-dən 24-dək davam edən birinciliyin sonunda 6 çəki dərəcəsi üzrə bütün rəqiblərini qabaqlayan hərbçilərimizlə də həmsöhbət olduq. Onlar idmanla məşğul olmaları üçün bölmələrində yüksək şərait yaradıldığını bildirdilər. Mütəmadi olaraq keçirilən belə birinciliklərin və yarışların idmana olan həvəslərini daha da artırdığını vurğuladılar. "Biz daim Müzəffər Ali Baş Komandanın istənilən döyüş əmrinə hazır olan əsgərlərik. Döyüş hazırlığımız da fiziki hazırlıqdan birbaşa asılıdır. Güclü, iradəli və dözümlü olsaq, istənilən hərbi əməliyyatlarda uğur qazana bilərik. Ona görə də fiziki hazırlığımıza daim diqqət edir, mütəmadi olaraq idmanla məşğul oluruq. Yarışların bu cür yüksək səviyyədə təşkil olunması bizə göstərilən diqqət və qayğının göstəricisidir. Birinciliyin təşkil olunmasında zəhməti keçən hər kəsə təşəkkürümüzü bildiririk", - qaliblər düşüncələrini belə ifadə etdilər.

**Kapitan
Ruslan HƏSƏNZADƏ,
baş leytenant
Mahmud MÖHBALIYEV
"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyə ilə Ukrayna müdafiə nazirləri arasında telefon danışığı olub



Fevralın 28-də Türkiyənin milli müdafiə naziri Hulusi Akar ilə Ukraynanın müdafiə naziri Oleksey Reznikov arasında telefon danışığı olub.

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyindən bildirilib.

Məlumata əsasən, nazirlər telefon danışığı zamanı Ukraynadakı son hadisələri müzakirə ediblər.

Hulusi Akar Türkiyənin Ukraynaya humanitar yardımını davam etdirəcəyini, eləcə də bölgədə sülhün bərqərar olması üçün çalışacaqlarını vurğulayıb.

Nazir Rezkinov öz növbəsində Türkiyəyə həm humanitar yardım, həm də sülh səylərinə görə təşəkkür edib.

### Rumıniya Ukraynaya hərbi sursat və texnika göndərəcək



Rumıniya hökuməti Ukraynaya hərbi sursat və texnika göndərmək qərarına gəlib.

Rumıniya hökumətinin nümayəndəsi Dan Kerbunaru Ukraynaya yanacaq, tibbi avadanlıq və dərmanların ikinci transı ilə 3 milyon avrodan çox yardım ediləcəyini bildirib.

Rumıniya hökuməti yaralı ukraynalıları hərbi xəstəxanalara qəbul etməyə hazır olduğunu da vurğulayıb.

### Rusiya Prezidenti müdafiə qüvvələrini xüsusi döyüş hazırlığına gətirməyi tapşırıb



Rusiya Prezidenti Vladimir Putin Müdafiə Nazirliyinə müdafiə qüvvələrini xüsusi döyüş növbəsi rejiminə gətirməyi tapşırıb.

Vladimir Putin müdafiə naziri Sergey Şoyqu və Baş Qərargah rəisi Valeri Gerasimova müdafiə qüvvələrini xüsusi döyüş növbəsi rejiminə gətirməyi tapşırıb.

Rusiya Prezidenti bildirib ki, Qərb Rusiyaya qarşı iqtisadi sahədə addımlar atır, eyni zamanda NATO-nun rəhbər şəxsləri Rusiya barəsində aqressiv fikirlər söyləyirlər.

### Avropa İttifaqı öz hava məkanını Rusiya üçün tamamilə bağlayır



Avropa İttifaqı üzv ölkələrin hava məkanını Rusiya təyyarələri üçün tamamilə bağlayır.

Bu barədə Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayen Brüsseldə keçirilən mətbuat konfransında məlumat verib.

"Biz Aİ-nin hava məkanını rusiyalılar üçün bağlayırıq. Biz Rusiyaya məxsus, Rusiya qeydiyyatında olan və ya Rusiyanın nəzarət etdiyi bütün təyyarələrə qadağa qoyuruq. Bu təyyarələr Aİ ərazisində eniş edə, qalxa və yaxud hava məkanı üzərində uça bilməyəcəklər", - deyə o bildirib.

Ursula fon der Lyayenin sözlərinə görə, bu qadağa bütün təyyarələrə, o cümlədən özəl lərə aiddir.

**AZƏRTAC-ın
materialları əsasında**

# Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə 2022-2023-cü tədris ili üçün kursant qəbulu qaydaları

**I. Ümumi müddəalar**

**Tədris dili**: Azərbaycan dili
**Təhsil forması**: əyani
**Təhsil müddəti**: 4 il
**Yaş həddi**: Cari ildə mülki ümumtəhsil müəssisələrində tam orta təhsil səviyyəsini bitirmiş, **qəbul ilində 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan** Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları, habelə **18 yaşından 23 yaşınadək** kişi cinsli hərbi qulluqçular və hərbi vəzifəlilər qəbul edilirlər.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olan kursantlar təhsil müddətində bütün təminat növləri ilə təmin olunur və ayda 153 AZN məbləğində müavinət alırlar. Təhsili və intizamı ilə fərqlənən əlaçı kursantların aylıq müavinətlərinə müvafiq qaydalara uyğun əlavələr edilir.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunlarına hərbi ixtisasla yanaşı, müvafiq mülki ixtisas üzrə bakalavr dərəcəsi də verilir.

**II. Sənədlərin qəbulu**

**Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə** qəbul olmaq istəyən namizədlər **1 aprel 2022-ci il tarixdən 30 aprel 2022-ci il tarixədək** ərizə ilə məktəb rəisinə müraciət etməlidirlər.

**Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır**:
- abituriyentin təsdiq olunmuş elektron ərizəsindən çıxarış;
- şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxədə və çap edilmiş 2 nüsxədə);
- tam orta təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti (cari ilin məzunları üçün orta məktəbdən verilmiş arayış);
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda);
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surəti (uşaq olduqda);
- oxuduğu təhsil müəssisəsindən (iş və ya yaşayış yerindən) verilmiş xasiyyətnamə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış;
- rəngli fotoşəkil (baş geyimsiz, anfas) - 6 ədəd 3x4 sm və 2 ədəd 4.5x6 sm ölçüdə;
- 18 yaşı tamam olmayan namizədlər üçün valideynlərin və ya qəyyumlarının notarial qaydada təsdiq edilmiş razılıq ərizələri;
- elektrokardioqramma;
- qanın ümumi analizi, qan qrupu və rezus-faktor;
- qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara dair müayinələrinin nəticələri;
- qanın hepatit C və hepatit B-yə dair müayinələrinin nəticələri;
- sidiyin ümumi analizi;
- psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərindən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar.

Məktəbə **"Təyyarəçilik"** ixtisası üzrə daxil olmaq istəyənlər yuxarıda göstərilmiş sənədlərdən əlavə olaraq nəcisdə helmintlərin yumurtalarının və lyambliyaların sistlərinin müayinəsinə dair tibbi sənəd də təqdim etməlidirlər.

**Şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd və təhsil haqqında sənədin əsli namizəd tərəfindən komissiyaya şəxsən təqdim edilir.**

**III. Ali Hərbi Məktəbə qəbul aşağıdakı qaydada həyata keçirilir**

Namizədlər Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində yaradılmış hərbi həkim komissiyasında müayinədən keçməlidirlər. Hərbi həkim komissiyasından keçmənin tarixi sənəd qəbulu zamanı qəbul komissiyası tərəfindən müraciət etmiş şəxsə bildirilir.

**Naxçıvan Muxtar Respublikasında** yaşayanlar hərbi həkim komissiyasında müayinədən **Heydər Əliyev adına Hərbi Liseydə** (Naxçıvan şəhəri) keçməlidirlər.

Müraciət edən şəxslərin **məhkumluğu barədə arayışın** alınması Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi rəisinin sorğusuna əsasən Müdafiə Nazirliyinin müvafiq idarəsi tərəfindən həyata keçirilir.

Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanında iştirak etmək üçün **Dövlət İmtahan Mərkəzinə** göndərilir.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul üçün keçiriləcək qəbul imtahanına hərbi həkim komissiyasından müvəffəqiyyətlə keçmiş namizədlər buraxılır.

Namizədlər Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanı verirlər. Qəbul imtahanı I ixtisas qrupunun fənləri üzrə keçirilir.

Namizədlər Heydər Əliyev adına Ali Hərbi Məktəbinə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 39 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"na uyğun olaraq mərkəzləşdirilmiş qaydada Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçirilən imtahanlarda əldə etdikləri nəticələr əsasında qəbul edilirlər.

**Sənədlər Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində yaradılmış komissiya tərəfindən qəbul olunur** (ünvan: Bakı şəhəri, Polad Həşimov küçəsi 9. (əlaqə telefonu: 012-479-78-40).

**Naxçıvan Muxtar Respublikasında yaşayan şəxslər sənədlərini Heydər Əliyev adına Hərbi Liseyə (Naxçıvan şəhəri) təqdim edirlər** (əlaqə telefonu: 036-544-00-15, 036-544-00-16).

Qəbul imtahanının tarixi **Dövlət İmtahan Mərkəzi** tərəfindən elan olunduqdan sonra əlavə olaraq bildiriləcək.

Əlavə məlumat **Azərbaycan Respublikası Müdafiə Nazirliyinin** və **Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin** internet saytında yerləşdiriləcək.

**www.mod.gov.az**
**www.aahm.edu.az**

# Müdafiə Nazirliyi müddətdən artıq həqiqi hərbi xidmət keçmək istəyənlərin qəbulunu elan edir

Azərbaycan Ordusunda müddətdən artıq həqiqi hərbi xidmətə könüllü daxil olmaq arzusunda olan vətəndaşların qəbuluna başlanılır.

Ən azı ümumi orta təhsilli, qanunla müəyyənləşdirilmiş müddətli həqiqi hərbi xidmətini başa vurmuş, 30 yaşınadək hərbi vəzifəlilər **fevralın 28-dən martın 19-dək** qoşun növlərinin, hərbi hissələrin qərargahlarında, eləcə də Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən qəbul komissiyalarına müraciət edə bilərlər.

"Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na qəbul olunmaq üçün müraciət etmiş vətəndaşlar qəbul komissiyaları tərəfindən hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədi ilə Müdafiə Nazirliyinin müvafiq tibb müəssisələrinə göndərilir. Hərbi Həkim Komissiyalarının qərarına əsasən hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılır.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq, liderlik və qərar qəbuletmə bacarıqları, həmçinin fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər kursa qəbul edilir.

Kursu müvəffəqiyyətlə başa vuran şəxslərlə üç il müddətinə bağlaşma imzalanır və onlar ixtisaslarına uyğun müvafiq vəzifələrə təyin olunur.

Namizədlər qəbul komissiyalarına müraciət edərkən aşağıdakı sənədləri təqdim etməlidir:
- kursa qəbul olunmaq barədə ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxədə, çap edilmiş 2 nüsxədə);
- xidmət (iş və ya təhsil) yerindən xasiyyətnamə;
- təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti (1 nüsxədə);
- doğum haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (1 nüsxədə);
- şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti (1 nüsxədə);
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda, 1 nüsxədə);
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surətləri (uşaq olduqda, 1 nüsxədə);
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış (1 nüsxədə);
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4,5x6 sm ölçüdə);
- qeydiyyatda olduğu poliklinikadan (dəri-zöhrəvi, vərəm, ruhi-əsəb, narkoloji və son 5 (beş) ildə infeksion xəstəliklərlə bağlı müraciət edib-etməməsi barədə) arayış;
- hərbi biletin bütün vərəqlərinin notarial qaydada təsdiq olunmuş surəti (1 nüsxədə).

**Sənədlərin qəbulu həyata keçiriləcək ünvanlar**: Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 76, "Qızıl Şərq" hərbi şəhərciyi (Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi), Qaradağ rayonu "Puta" hərbi şəhərciyi və Kürdəmir şəhərindəki hərbi hissə.

**Müraciət etmə vaxtı:** 2022-ci il fevralın 28-dən martın 19-dək hər gün (bazar günləri istisna olmaqla) saat 09.00-dan 18.00-dək.

**Qeyd**: Müddətdən artıq həqiqi hərbi xidmətdən "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 156-cı maddəsinin "e" bəndinə (xidməti uyğunsuzluğa görə) müvafiq olaraq ehtiyata buraxılmış hərbi qulluqçuların və məhkumluğunun ödənilməsindən asılı olmayaraq məhkum olunmuş hərbi vəzifəlilərin kursa qəbul üçün müraciət etməmələri xahiş olunur.

# İdman

## Cüdoçularımız açıq Avropa turnirini 5 medalla başa vurublar

Cüdo üzrə Azərbaycan milli komandası Varşavada keçirilən açıq Avropa turnirini 5 medalla başa vurub.

Yarışın sonuncu günündə 100 kiloqramdan yuxarı çəki dərəcəsində mübarizə aparan İmran Yusifov üçüncü yeri tutub. Bununla da komandamızın qazandığı medalların sayı beşə çatıb.

Yarışın birinci günündə Azərbaycan komandası 2 qızıl, 1 gümüş, 1 bürünc medal qazanıb.

Qızıl medalları yığmamızın aktivinə Əhməd Yusifov (60 kq) və İbrahim Əliyev (66 kq) yazdırıblar. Gümüş medala İsmayıl İbrahimov (66 kq), bürünc medala isə Rövşən Əliyev (60 kq) sahib olublar.

Yarışa 13 idmançı ilə qatılan komandamız bu nəticə ilə 32 ölkə arasında üçüncü yeri tutub.

## FIDE Rusiyanın 44-cü Ümumdünya Şahmat Olimpiadasına ev sahibliyini ləğv edib



Beynəlxalq Şahmat Federasiyası (FIDE) nüfuzlu yarışlardan olan 44-cü Ümumdünya Şahmat Olimpiadasının Rusiyada keçirilməməsi ilə bağlı qərar qəbul edib.

FIDE-nin saytında yerləşdirilən bu barədə məlumatda sürətlə gərginləşən geosiyasi vəziyyətlə əlaqədar FIDE Şurasının belə bir qərar qəbul etməli olduğu bildirilib. Qurumun növbədənkənar iclasında planlaşdırılan bütün rəsmi yarışlara ev sahibliyinin Rusiyadan alınması qərara alınıb. Beləliklə, bu qərardan sonra əsas tədbirlərdən olan 44-cü Şahmat Olimpiadası, Xantı-Mansiyskdə keçiriləcək əlilliyi olan insanlar üçün birinci Şahmat Olimpiadası və FIDE-nin 93-cü konqresi Rusiyada təşkil edilməyəcək. FIDE bu tədbirlər üçün alternativ tarix və yerlərin axtarışı üzərində işlədiyini elan edib.

Qeyd edək ki, Olimpiadanın iyulun 26-dan avqustun 8-dək Moskvada keçirilməsi nəzərdə tutulurdu.

## İkiqat dünya və Avrasiya çempionu Səbuhi Quliyevin döyüşü təxirə salınıb



Fevralın 26-da Moskvada təşkil olunan MMA Series liqasının 49-cu turnirdə MMA (WMMAF) üzrə ikiqat dünya və Avrasiya çempionu Səbuhi Quliyevin döyüşü təxirə salınıb.

Buna səbəb idmançımızın rəqibi yerli döyüşçü Aleksander Lunevin qolunun sınmasıdır.

S.Quliyev növbəti döyüşünü martda keçirəcək. Döyüşçümüz turnirdə "ASED Fighting Championsip"in (AFC ASED) komandasını təmsil edəcək.

MMA döyüşçümüz bundan əvvəl ACB, Alash Pride və NFC kimi tanınmış liqalarda mübarizə aparıb.

**AZƏRTAC-ın materialları əsasında**

Rüstəmov Fikrət Qurban oğluna məxsus № 001671 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 305
Nüsxə 4673